Bitmişəm yer ilə göy arasında –
Bu süzgəc ilahi iradəsidir.
Kimsə eşitməyən nəğmələr keçir.
Ulduz pıçıltısı, duman səsidir.
Keçir ürəyimdən millətin ruhu.
Bir üzü ucalıq, bir üzü qorxu.
Min ilin qanıdır – içimdə diri,
Dünyada kim ölür? Yaddaşı itən!
Ürəyim bir qaçqın düşərgəsidi,
Keçir körpələrin göz yaşı məndən.
Keçir yüz illərin məğlubiyyəti,
Üç qitə yolunda ayağım yorğun.
Vətən güclüdürsə, ucadı bayraq,
Vətən çəkiləndə bayrağım yorğun...
İlk nədi, son nədi – ürəyim duyur.
Keçmişə yol alan köçürmüş məndən.
Zamana qoşulub bir ömür boyu
Tanrının özü də keçirmiş məndən.

1995

Məncə, o şey ki, təbii şəkildə aradan çıxır onu zorla qoruyub saxlamaq olmaz. Keçmiş formalar nə vaxtsa öz işini görüb qurtarır; yeni silah tapılanda köhnələr qiymətini itirir. Forma da paltar kimidir, köhnələndə atılır. Ola bilsin ki, bu köhnə paltar sənə çox yaraşırdı və heç bəlasini tapmaq olmayacaq da! Amma nə etməli?

Şer öz zamanına bənzəyir. Keçmişin şeri keçmişə, indinin şeri indiyə.

Əsas ifadə forması deyil, ifadə olunandır. Keçmişdə görüşə at üstündə, arabada gedirdilər, indi maşınla gedirlər, görüşə apuran duyğunun mahiyyəti isə dəyişilməyib...

TORPAQDADIR

Bir pərdəyəm tardan gizli,
Bir istəyəm yardan gizli...
Göydən gizli, yerdən gizli
Sirrim bu ağ varaqdadır.

Hücum çəkir üstümə qəm,
Düşünürəm kimsəm, nəyəm?
Ürək deyir: yaxşı nəğməm
Qorxma, hələ qabaqdadır.

Ayrılıqdan olmaz doyan,
Tale deyər di yan, di yan...
Araz axır sirri bəyan,
Nalələri dodaqdadır.

Haqq yolunda sın, armı heç,
Dost da dostu sınarmı heç?!
Yad önündə sınarmı heç
Kimin əli yaraqdadır...

Düz sözümdən sıxılmaram,
Dərd oduna yuxalmaram,
Hər tufana yıxılmaram,
Köküm ana torpaqdadır!

1973

MƏN HARA QAÇIM

Meşə ağ dumanı tel-tel didəndə,
Yarpaq leysanında çaylar itəndə,
Durnalar bahara uçub gedəndə
Payızın əlindən mən hara qaçım?

Bulud pardaxlandı, qar dəniz oldu,
Nə bir yol tapıldı, nə bir iz oldu,
Dağlar da qorxudan ağbəniz oldu,
Dağların əlindən mən hara qaçım?

Oğul cavanlaşır, ata qocalır,
Ürəyi ney kimi tənhalıq çalır.
Biz birlik deyirik, sədlər ucalır,
Hicranın əlindən mən hara qaçım?!

1970

BULAQ

Bu çeşmənin gözü burda,
sözü o tayda, o tayda.
Çəmən-çəmən ləpirləri,
izi o tayda, o tayda.

Oxuduğu nəğmə kövrək,
Axarıyla axır ürək,
Qucur bu dağın qolutək
Düzü o tayda, o tayda.

Aynasında surətim var,
Bilir nədir bu intizar,
Görüşürdü axar sular
Bizi o tayda, o tayda!..

Yardımlı, 1972

GÖZÜMDƏ QALDIN

Səhərdin – ömrümə günəş doğuldu,
Vüsaldın –
qurudu qəmim, sovuldu.
Nəğməydin – sükutun hökmü yox oldu,
Dağ din – ucaldın düzümdə qaldın!

Görüşdük bir çayın qolları kimi,
Torpağın həsrəti – bol barı kimi.
O uzaq uşaqlıq yolları kimi
Daim xəyalımda, gözümdə qaldın.

Bulaqsan, üstünə enən cığırdım,
Səhrasan, yağıştək sənə yağırdım.
Uzaqsan, arxanca mən ha çağırdım
Batdın ümid kimi,
səsimdə qaldın.

Böldü ürəyimi hicran,
qanatdı,
Buludtək dolmağın vədəsi çatdı.
Səadət qurudu, kədər boy atdı.
Kədərə qovuşan izimdə qaldın.

Yel əsdi, aranı duman bürüdü,
Tək qaldım ağrıya sarı yeridim,
Mən sənin odunda yanıb əridim,
Sən mənim küllənmiş közümdə qaldın.

1973

BU YAZ YAĞIŞI

Şimşək işığıyla alışdı anlar,
Ürəyə yüz ümid yazdı gümanlar.
Dağların başını döydü dumanlar,
Yenə də yan keçdi bu yaz yağışı...

Kiminsə çəməni xalılar sərməz,
Kiminsə ağacı daha bar verməz.
Bir şair qəlbində sözlər göyərməz...
Yenə də yan keçdi bu yaz yağışı.

Yarımçıq nəğmətək soğuldu bulaq,
Torpağı sormaqdan yoruldu bulaq,
Göylərə baxmaqdan kor oldu bulaq,
Yenə də yan keçdi bu yaz yağışı.

Ömür qövsi-quzeh arzuya bağlı,
Zirvə suya bağlı, qar suya bağlı,
O çiyni səhəngli yar suya bağlı,
Yenə də yan keçdi bu yaz yağışı.

Burulğan yolları eşələr – göynər,
Torpaqda sıxılan rişələr göynər.
Tumurcuq-tumurcuq meşələr göynər,
Yenə də yan keçdi bu yaz yağışı.

Kökümüz tarixin od çeşməsində,
Boyumuz tufanlar çəkişməsində,
Bizə də pay düşdü göyün səsindən
Yenə də yan keçdi bu yaz yağışı.

Onsuz da tarlamın suyu gələcək,
Gözümdən od alıb yayım gələcək.
Bir payız dolusu toyum gələcək
Bəs niyə yan keçdi bu yaz yağışı?!

NİYƏ...

Sən ki, o yolları son dəfə keçdin
Niyə daş olmadın, ayağım, niyə?
O nur çeşməsindən doymadın, içdin
Niyə odlanmadın, dodağım, niyə?

Bir sevinc səslədim, min qəm oyatdım,
Dağdözməz dərdimi sənə boşaltdım,
Üstündə gurhagur ocaqlar çatdım.
Niyə kül olmadın, varağım, niyə?

Hanı bol məhsulum, hanı boy ayım? –
Silinsin yolumdan bəxtin qolayı;
Namərd ortalıqda meydan sulayır,
Niyə korşalmısan, yarağım, niyə?

Hələ gözümüzdə min söz, min dilək,
Ümiddən ümidə yol salır ürək,
Qayaya çırpılan əks-səda tək
Üstümə dönürsən, sorağım, niyə?

Gülərəm, hayanda qılınc dinirsə,
Ölərəm, hayanda Vətən enirsə.
Baharım təzəcə pöhrələnirsə
Xəzan hənirlisən, yarpağım, niyə?

Min arzu uyuyur hər naxışında,
Qanımdan od aldın hicran qışında,
Mənim ürəyimtək Təbriz başında
Niyə yellənmirsən, bayrağım, niyə?

1970

QAR YAĞARDI

Qar yağırdı, sübhün zəif işığıtək,
Təbiətin uyğusuna qar yağırdı.
Budaqlarda təzə-təzə qımıldanan
Çiçəklərin qorxusuna qar yağırdı...

Əsrlərin buz nəfəsini qıranların,
Qayalarda bizə yuva quranların,

Qəbristanda daşa dönüb duranların
Əbədiyyət yuxusuna qar yağırdı.

O anaydı – göydən gələn qar dənəsi!
O ataydı – ömrümüzün pərvanəsi!
Tələsirdim, ürək yollar divanəsi,
Ürəyimin ağrısına qar yağırdı...

Bağ içindən budaqları əyən kəsin,
Mənim bahar həsrətimi duyan kəsin,
Əlləriylə "Get, yaxşı yol!" deyən kəsin
Gözündəki sorğusuna qar yağırdı...

1978

DÜNYA QƏDİM DÜNYADI

Heydərbaba, dünya yalan dünyadı...
Şəhriyar

Dünya qədim dünyadı,
Karvanı yollar üstə.
Daş üstə gül bitirər
Bar yetirər qar üstə.

Həm mizrabdı, həm tardı,
Həm heçlikdi, həm vardı,
Lüt-üryan hökmüdardı –
Bardaş qurub var üstə.

Sevinc aşır, dərd enir,
Açmır bağlı pərdəni,
Deyir təzə dərdini
Köhnə havalar üstə...

18.XI.1979

YOXUŞA DOĞRU

Bir günün altında günümüz ayrı,
Bir qəm harayında ünümüz ayrı,
Qoşa addımlarıq, yönümüz ayrı:
Sən bahara doğru, mən qışa doğru.

Ürək axtarışda, ömür-gün yarı,
Bitmədi taleyin dolanbacları,
Başına döysə də su qırmacları,
Çiçəklər əl açar yağışa doğru.

Daha mən atayam, sən ana, bilək,
Ağrılar qalıbmış sona, nə bilək?!
Bu son imtahanda sınana bilək
Ağzımız dirənib yoxuşa doğru...

27.VII.1979

GEDİR – GETSİN, QALIR – QALSIN

Uçub gedək, bu yuvada
Kimlər məskən salır – salsın.
Hicran sönmüş duyğularda
Qəm havası çalır – çalsın.

Ürəkdən ki şaxta keçdi,
Çiçəklənmək çətin işdi,
Tale mənə nə vermişdi, –
Verdiyini alır – alsın.

Soldu çəmən, ötüşdü yaz,
Susdu nəğmə, qırıldı saz,
Gedənə "qal" demək olmaz,
Gedir – getsin, qalır – qalsın!..

1979

PAYIZLA BİRGƏ

Durnalar könlümdən uçan həvəsdi,
Yenə bu gethaget səbrimi kəsdi,
Sən Allah, bu axşam ağlama, bəsdi,
Üz qoyub uyuyum o üzlə birgə...

Qoymadım hasarı yad aşa, qaldım,
Çevrildim yarpağa, ya daşa, qaldım,
Daha ümidimiz yaddaşa qaldı,
Otlanıb itərəm o izlə birgə...

Göz yaşın – bir yaşıl tumurcuq, yandı,
Çalış pöhrələnsin tumurcuq andın,
Baharda baharla tumurcuqlandım,
Yanıb tökülürəm payızla birgə...

14.X.1979

ÜZÜNƏ VURMAZ

Günəş işığını əndərər yerə,
Cücərən otların üzünə vurmaz.
Göllər güzgüsünü tutar göylərə
Qızıl buludların üzünə vurmaz.

Ağrılar yığılar sinəsə səssiz,
Zəhər damcılayar badəmə səssiz,
Dağlar qucaq açar bu qəmə səssiz,
Başındakı qarın üzünə vurmaz.

Ömrüm çox udsa da göz acısını,
Minnətsiz çəkibdi tale nazını.
Torpaq – ağrısını, güllər – yasını
Gecikən baharın üzünə vurmaz.

Hicran – yoxluq anım, görüş – sağ anım,
Qoy yenə qoynuna qaçıb sığınım,
Bizim aramızdan çıxmadığını
Əlim, qoşa narın üzünə vurmaz.

Çox iti yanırmış sevgi ocağı,
Gəl bundan incimə, nə olar axı?
Sənintək gözəllər belə günahı
Mən tək günahkarın üzünə vurmaz!

10.III.1980

ÖZÜN BİLİRSƏN

Özün bilirsən ki, mənim kimimsən,
Uzaq mənzillərə üzən gəmimsən.
Gəlib-gedənimsən, yol ötənimsən
Hər yoldan ötənə yuva nə gərək?

Deyirsən: bəxtimsən, əlimdən uçan,
Deyirsən: ovumsan, bərəmdən qaçan.
Belə ki, qorxursan ayrılığımdan,
Günəş də doğmağa yubana gərək.

Ömür səfər üstə – yol dəstələnmiş,
Deyilmiş son kəlmə – göz həlqələnmiş,
Bunca ki sinəmə yaşlar ələnmiş,
Quru kötüyüm də pöhrələnəcək!..

18.IX.1980

SƏNƏ YOVUŞMARAM

Görüşə bilirmiş əvvəl axırla,
Uçmusan gümanlı sorağın üstə.
Qayıdıb gəlmisən köhnə cığırla
Bir külü sovrulmuş ocağın üstə.

"Tanıdın?", "Tanıdım!" – tanımarammı?!
"Sən məni qınama!" – qınamarammı?!
Qaçan peşimandı, sona varanmı,
Qanadı yananmı çırağın üstə?!

Bilirəm: həyətdə gözləyir maşın,
Bilirəm: dövlətin başından aşır,
Arılar çöllərdə gülə daraşır,
Sən isə qonmusan yarpağın üstə!..

Günün xoş, qəlbin boş! – necə sınandın?
Gəldin ki, içəsən, içə son andı,
Qızıl boyunbağın – qızıl qanındı,
Soyuq göz yaşındı qolbağın üstə.

Gülüşün turşumuş, sözlərin əzik!
Bu halda sən kimsən, ay bəxti kəsik?
Bilsəm ki, dünyada qalan tək bizik,
Sənə yovuşmaram torpağın üstə!..

16.X.1980

TALEYİMLƏ BARIŞMAĞIM

Ha gedirəm yol çətindir,
Mən inadcıl, yol mətindir,
Bəlkə tale qismətimdir
Tufanlarla yarışmağım.

Bu ağrıdan qaçan varmı,
Ağrı məqsəd, ağrı barmı,
Bir kimsəni ağrıdarmı
Torpaqlara qarışmağım?

Geci-tezi solan cansa
Dediyim söz qılınc olsun.
Bir nəsilə qaxınc olsun
Yalanlarla barışmağım...

GÜLLƏRİ DƏ GÖZLƏRİMLƏ ÖPÜRƏM

O ümidlə soyuyubdu haçandı,
Zirvəmizi asta-asta qar alar.
Keçib getdi şirinin də, acın da,
Mənə qaldı könlümdəki yaralar.

Çox gözlədim bu sübhümüz, bu da dan,
Qımıldanıb çıxammadım butadan.
Vaxtında ki qurtarmadın xatadan
Neyləyəcək gecdən gələn çaralar.

O mən idim – addımına gül əkən,
O mən idim – hər arzuna pilləkən,
Nə qalıbdı güvəndiyin ürəkdən
Yurd yerinin ocağıdır, qaralar!

Ayrılıqda illərə tay bil günü
Sınayacaq boyumuzda ülgünü,
Bu tale də öyrənmədi bölgünü!
Hara xəzan, hara çiçək, hara bar?

Soyum bəlli! Səbirli yox, Sabirəm!
Dərd biçəndə yenə sevinc səpirəm,
Gülləri də gözlərimlə öpürəm,
Qorxuram ki, əlim dəycək saralar...

1982

YAPIŞMAZ

Külüng çaldın, könlüm qaldı virana,
Sınan sındı o bir daha yapışmaz,
Saç ağardam, gözlərimə tor enə
O keçmişim bu sabaha yapışmaz.

İmdad çəkə aramızda söz belə,
Ha qol atıb öz səhvindən üz belə,
Sellər axıb elçi düşə yüz belə
Dağ arana, aran dağa yapışmaz.

Mənim könlüm bu işığa pərvanə,
Gündüzümün dövrəsində firlanar
Kənar düşsəm gözüm sönüb qorlanar,
Kənar gəlsə bu ocağa yapışmaz.

Ömür keçid dərd qolunu bükməklə,
Könlüm sındı ümidə yol çəkməklə,
Aramıza Araz yaşı tökməklə
Sağım sola, solum sağa yapışmaz.

Şimşək olub buludunu didməsəm,
Ağac olub yaddaşında bitməsəm,
Ürəyinin harayına yetməsəm
Odlu ruhum buz torpağa yapışmaz!..

VƏTƏN MƏNƏ ƏL ELƏDİ

Dünya gəzdim, yüz-yüz şəhər dolandım,
Bir tüstülü rxağından doymadım.
Qürbət yolu ayağımda gül açdı
Boz çölümün ocağından doymadım.

Sözbaz qaya cavabımı verəndi,
Güzgü bulaq hər sirrimi görəndi,
Yaxın eşqim uzaq bəxtə dirəndi,
Yaxınından, uzağından doymadım.

Səhərini arzularla oyatdım,
Çayırıyla, tikanıyla boy atdım,
Vətən mənə əl elədi qayıtdım,
Nə vaxt gəldim qucağından doymadım.

Söz qaladım yanğısından köz düşdü,
Əl uzatdım, köməyimdən iz düşdü,
Hansı eldə soyumuzdan söz düşdü --
Dost dilində sorağından doymadım.

Tarix məni yollar boyu seyr etdi,
Gah artırıb sıramı, gah seyrəltdi,
Dilimizi-nəğmələrə öyrətdi
Əlimizin yarağından doymadım.

4.X.1985

DAĞLAR

Zirvədən yol salıb ordan aşmadım,
Qorxdum əhdimizi pozarsan, dağlar.
Mən sizə yaraşan şeir qoşmadım,
O şeri Sən özün yazarsan, dağlar.

Nəğmə oxumağa ta səsim gəlməz,
Yolları yormağa nəfəsim gəlməz,
Daşa qayıtmağa həvəsim gəlməz,
Qəbrimi zirvədə qazarsan, dağlar!

Ağ duman – barışıq bayrağım kimi,
Şəlalə – çağlayan sorağım kimi,
Ayı soluxmayan çırağım kimi
Gecələr üstümdən asarsan, dağlar!..

YAYLAQ YOLUNA

Gözlərimlə yoxuşları biçərdim,
Diş töksə də çurçurundan içərdim.
Yaylaq yolu, bir də səni keçərdim,
O zirvədən bir ümidim doğsaydı...

Yaşasaydı o həsrətim, gözləməm,
Gah açılan, gah buludda gizlənən,
Uzaq illər arxasından səslənən
Bir də dönüb o sevinclə baxsaydı.

O axşamlar gözümüzdə əriyib,
O istəklər könlümüzdə yeriyib,
O yağışlar bir örtüyə bürüyüb,
Gecə-gündüz başımızdan yağsaydı.

Gül səpsəydim o sızlayan izəcən,
Dinləsəydim axırıncı sözəcən,
Dağ çayında çirmələnib dizəcən
Yaylıq kimi məni yuyub sıxsaydı.

Nida, 22.IV.1984

* * *

Öz içimdən gecə-gündüz talandım,
Kösöy olub ocaqlara qalandım,
Zərrə-zərrə ömürlərə calandım
Bir yaddaşda izim varsa, bəsimdir!

Dünya böyük, yollarımız gen idi,
Zirvələrə layla deyən gün idi.
O dağlara dağlar boyda ümidim –
Ürəyimdə ucalırsa, bəsimdir!

Ağ dumanlar – üstümdə ağ bayrağım,
Sal qayalar – son limanım, dayağım.
Yad torpaqda fəryad çəkən ayağım
Dağ yolunda yoxuş yorsa – bəsimdir!..

1984

YOLLARIM

Bir ucu dənizdə, bir ucu göydə
Torpaqdan Allaha çatan yollarım.
Yamac əyrisində ilana dönüb
Düzün düzlüyündə yatan yollarım.

Dərədə qaranlıq, zirvələrdə dan,
Keçər iqlimlərin hər havasından.
Quzey payızından, güney yazından
Yükünü doyunca tutan yollarım.

Ünvanı şərikdir çiçəklə daşın,
Keçir arasından göz ilə qaşın,
Dönüb körpüsünə yay ilə qışın
Payızı bahara qatan yollarım.

Min ocaq səsləyir, min ev çağırır,
Ən uzaq mənzilə yetir axırı,
Cığal ədasını milyon cığırın
Ağsaqqal səbrində udan yollarım.

Asılıb dumanın bəyaz saçından,
Köz alıb şimşəyin od ağacından,
Məni biganəlik dolanbacından
Ana qucağına atan yollarım.

14.VIII.1984

ƏLƏSGƏR OCAĞINDA

Aşıb getdik Kəlbəcərdən Göyçəyə,
Atımızı dağa-daşa sürmədik.
Bu ulusdan o ulusa adladıq
Özgəsinin qapısını döymədik.

Eyni dağlar, eyni çəmən, eyni gül,
Eyni torpaq, eyni oba, eyni dil,
Sularının nəğməsi də eynidir,
Çaylar dağın gözlərinə sürmədir.

Haqverdini saz üstündə haqladıq,
İsmixanı söz üstündə yoxladıq,
Ələsgərə diz üstündə ağladıq,
Ancaq ondan dirisini görmədik...

Göyçə, 20.IX.1984

BİR İCLASIN OVQATI

Musa Yaquba

Tale sənin dönərgəni döndərir,
İki günlük biz tərəfə göndərir.
Sənin dağsız, dağın sənsiz günləri
Sən yazıqsan, dağ yazıqdı, bilmədim.

Qımıldanan tumurcuqlar haçalı,
Əlin yetsə çəmən teldən aç, alı.
Ağ döşlərdən qara şırım açılır –
Qara yazıq, az yazıqdı, bilmədim.

Bahar gəlib, qansızlar da qanlanır,
Sənsə burda... üzün heçdən danlanır.
Ağacların xəstəsi də canlanır,
Ölü yazıq, sağ yazıqdı, bilmədim.

Qaranquşlar eyvanlarda xamırçı,
Bostanların arzusuna tum uçur,
Musa deyib, sızıldayır tumurcuq –
Musa yazıq, bağ yazıqdı, bilmədim.

Ocağımız küllənibdi daha, bax,
İmkan yoxdur sola boylan, sağa bax.
Piyadaya təslim olan şaha bax,
Gədə yazıq, şah yazıqdı, bilmədəm...

1984

QAYIDAN DEYİLƏM

Baxmadın ürəyimin
Qanadlı arzusuna.
Sındırdın, ayaqladın,
Getdim, gözlərimdə qəm.
Bütün gedənlər gələr,
Qayıdar yuvasına.
Təkcə məni gözləmə
Mən qayıdan deyiləm.

Dünyadan nə elə bir
Möcüzə ummağım var.
Nə sevincə əl açıb
Sözə umsunmağım var.
Məgər mən çöl otuyam
Hər küləyə əyiləm...
Getdimsə, son gedişdi
Mən qayıdan deyiləm.

Sevən ölüm istəyər
Biganəlik istəməz.
Qurutduğu bir koldan
Yaşıl yarpaq gözləməz.
Ürəyə yatmıramsa
Dilə yatan deyiləm...
Geriyə yol bağlıdı
Mən qayıdan deyiləm.

Ürəkdən qurban olmaz
Ürək sevgidən baha...
Hansı təzə söz qonar,
Bu qaralmış varağa,
Ömrümü girov qoyub
Duyğu satan deyiləm,
Darıxan özü gedər,
Mən qayıdan deyiləm.

10.XI.1985

ADINA BƏNZƏYƏ BİLƏRSƏNSƏ

Adın ürəyimi bəzəyən arzu,
Adına bənzəyə bilərsənsə, gəl.
Baharı vədəsiz ötən ömrümə
Təzə bahar kimi gələrsənsə, gəl!

Ürək haray çəkir – zamandan yorğun,
Gərəksiz gileydən, gümandan yorğun,
Ömrün də payızı dumandan yorğun –
Gözümdən dumanı silərsənsə, gəl!

Bilirəm, bu yolda əsəcək dizin,
Bilirəm ağrıdan keçəcək izin...
Şəriki çox olub sevincimizin
Dərdimi dərdintək bölərsənsə, gəl!

Hicran yoldaş olub ömrə uzandı,
Mən bəxtdən küsmədim, bəxtim usandı.
Tale güldürəndə gülmək asandı,
O ağla deyəndə gülərsənsə, gəl!

Ölüm həsrət-həsrət əlimdən tuta,
Mindirə fələklər ürküdən ata,
Üstümdə ruhumtək göyərən ota
İsti göz yaşları çilərsənsə, gəl!

7.X.1985

BAKIYA ZƏNG VURDUM

Küskün danışırsan mənimlə yenə,
Sevgim xırdalanıb küsüyə gəlməz.
Əyri görünmüşəm sənin güzgünə,
Güzgünün öz üzü güzgüyə gəlməz.

Mən yerdən sovrulan qum dənəsiyəm,
Özüm öz dərdimin pərvanəsiyəm,
Susmalı çağımda nə dinəsiyəm?
Düzlüyüm əlavə düzgüyə gəlməz.

Yalanı yük edib çəkən deyiləm,
Böhtanı ürəyə əkən deyiləm,
Mən dəmir barmağa tikan deyiləm,
Tikan ələ gələr, üsküyə gəlməz.

Yay kimi, qış kimi yanaşı varsan
Gah ruhu oyadan, gah üzü qarsan,
Dodaqdan quş kimi pərvazlanarsan
Söz ürəyə qonar, səs-küyə gəlməz.

Taletək qoşulub mənə gedirsən
Hara addım atsam, orda bitirsən,
Soyuq gileyinlə mənə yetirsən,
İsti xeyir-duan bəs niyə gəlməz?

6.X.1985

SƏNİN GÖRÜŞÜNƏ GƏLMİŞƏM

Gör harda açıldı sözün düyünü,
Gör harda alışdı çatdığım ocaq,
Bu çətin yollarla, ay ömrüm-günüm,
Sənin görüşünə gəlmişəm ancaq...

Bəxtimtək açıldı isti qolların,
Ən xoş etirafın-dilindəki ah,
Adlayıb illəri, yorub yolları
Sənin görüşünə gəlmişəm ancaq!

Mənə "varım" dedin, "varlığım" dedin,
Bu sözlər zirvəmə sancılan bayraq.
Xoşbəxt baxışınla sən də söylədin:
"Sənin görüşünə gəlmişəm ancaq".

Qoy sonu olmasın bu günümüzün,
Sevinc qapısını taybatay açaq,
Qopmasın ürəyin, dolmasın gözün,
Sənin görüşünə gəlmişəm ancaq!..

Getsən də arxanca uçan qanadam,
Gəzəcək dalınca bu susmaz soraq,
Mənə elə gəlir bu həyata da
Sənin görüşünə gəlmişəm ancaq!

DÖZƏ BİLMİRƏM

Mən bir zərif dağ otuyam
Arana dözə bilmirəm.
Vüqarımı acı sözlə
Qırana dözə bilmirəm.

Kəsirlər yalan əliylə,
Əsirlər talan yeliylə,
Halımı ilan diliylə
Sorana dözə bilmirəm.

Yolumuzu bura-bura,
Köksümüzü yara-yara
Sümüyümdən qızıl saray
Qurana dözə bilmirəm!

Sən ha çalış, sən ha qazan,
Özgə qanla yaşamazsan,
Ay bəxtimi qara yazan,
Qarana dözə bilmirəm!

Arzularım təzə, dən-dən,
Od göyərir təzə dənnən...
Dünya uçub təzədənnən
Yarana! Dözə bilmirəm!

3.VIII.1985

SƏHƏR YELİNƏ

Səhər yeli, astaca əs,
Mən də sübhün sirdaşıyam.
Sən bu yurdun nəğməsisən,
Mən də onun göz yaşıyam.

Ey ildırım, çax yolumda,
Ey ürəksiz, çıx yolumdan,
Mən hazıram haqq yolunda
Kirpiyilə qor daşıyam.

Varlığımda minbir iz var,
Dodağımda təmiz söz var
Hansı eldə kimsəsiz var
Onun qanbir qardaşıyam!

3.VIII.1985

NƏ SÖYLƏYİM

Övladını yad dil ilə
Dindirənə nə söyləyim?
Şöhrətimi göydən yerə
Endirənə nə söyləyim?

Gördüm dünya təzadını
Çürük canda təzə donu,
Öz əliylə öz odunu
Söndürənə nə söyləyim?

Varlığını sata-sata,
Yüz günaha bata-bata
Namərdi qanadlı ata
Mindirən nə söyləyim?

Dözdüm tale qanazına,
Qondum haqqın yaxasına,
Dostu düşmən qapısına,
Göndərənə nə söyləyim?

Ovxarı yatırıb qına,
Əlimi susadıb qana
Suyumuzu yad arxına
Döndərənə nə söyləyim?

3.VIII.1985

SONU BAŞDAN YAŞAYANAM

Namərd qardaş, məndən ona,
Ondan mənə nə deyirsən?
Özün üryan ola-ola
Dondan mənə nə deyirsən?

Ürəyində qara zindan,
Qan süzülür yarasından,
Qansızların arasında
Qandan mənə nə deyirsən?

İstəyimiz qar kimisə,
Sarvanımız kor kimisə,

Can sözümüz çor kimisə,
Candan mənə nə deyirsən?

Payızıma solmadımsa,
Yasımıza dolmadımsa,
Özüm çarə bulmadımsa
Yandan mənə nə deyirsən?

Yollara gül döşəyənəm,
Dünyaya od daşıyanam,
Sonu başdan yaşayanam
Sondan mənə nə deyirsən?

3.VIII.1985

SEVƏN DEYİL

Taledən daranıb gəlir,
Bəxtim daraq sevən deyil,
Gözüm göyün çırağından
Özgə çıraq sevən deyil!

Ucalmadım bəhsəbəhsə,
Daş atmadım doğru kəsə,
Düşmən özü öcəşməsə
Əlim yaraq sevən deyil.

Mənim yurdum bircə rəngdi,
Göz aparan bir çələngdi,
Elə bütöv bir ürəkdi –
Özgə yamaq sevən deyil!

Yağı gəlsə, qara qışam,
Bahar gəlsə, qaranquşam,
Haqqa peyvənd yaranmışam,
Ruhum çalaq sevən deyil!

1985

MƏN SARVANAM

Mən sarvanam – yol gedirəm,
Karvanıma hürənə bax!
Yaxşılığım haqqa bəlli,
Pisliyimi görənə bax!

Əyri baxıb öz varına,
Haram qatıb bazarına,
Yurdun tarix hasarına
Çürük daşı hörənə bax!

Vətən bağı çiçək açır,
Çiçəkləri işıq saçar...
Əkmədiyi bir ağacın
Meyvəsini dərənə bax!..

3.VIII.1985

AĞLA

Ağla, ürəyim, ağla,
Ağrın qaldı özünə.
Göz yaşınla su verdin
Dilbilməzin sözünə.

Yolları dəstələdin,
İlləri üstələdin,
Kimi gülə bələdin
Tikan əkdi izinə.

Neçə qışı yayladın,
Neçə daş qolayladın,
Ocaqları payladın
Möhtacsan bir közünə.

1986

* * *

Axır ki, həsrətin soyuyub odu,
Ayrılmaq istəyi görüşməkdən çox.
Bəlkə də ürəyin düz sözü budu:
İstəsən istərəm, istəməsən yox.

Gəlişin ömrümə nə gətirib? Qəm!
Soyuq baxışların – zəhərlənmiş ox.
Daha öz-özünə yanan deyiləm,
Gözləsən gözlərəm, gözləməsən yox.

Nə yaxşı qürurum qayıdıb geri,
Gəzirəm dünyada gözü-könlü tox.
Bir gün kirpiyinlə açıb səhəri
Səsləsən səslərəm, səsləməsən yox.

QƏDƏRİM

Aramızda Araz oldun,
İçəcəyəm, bəxtim, səni.
Bu saralan zəmi kimi
Biçəcəyəm, bəxtim, səni.

Bu zamanın axışında,
Bu zalımlar naxışında.
Bu qardaşlar baxışında
Seçəcəyəm, bəxtim, səni.

Bir sahilsiz nəhir olsan,
Bir günəşsiz səhər olsan,
Dünya dolu zəhər olsan,
İçəcəyəm, bəxtim, səni!

Qars-Gümrü yolu, 1987

QORUSUN

Yol tapmayıb üz tuturam Tanrıya
İşimizi sözümüzdən qorusun.
Bu bir dərddir, kim duymasa o duyar,
Əl çalanı kürsümüzdən qorusun.

Təpəmizə dağlar şahı deyirik,
Koma hörüb saray qədər öyürük,
Əyri gözlə dost yükünü əyirik
Göz dəyəni gözümüzdən qorusun.

Haqq axtaran yarasına düz əkdi,
Nəfsin boğan bir mahala bəzəkdi,
İlk nübarı, pak ocağı, düz əhdi
Qapı güdən izimizdən qorusun.

Min ev yanar bir ocağın qoruna,
Yüz mərd düşər bir namərdin toruna,
Ordu gərək satqınından qoruna
Çoxumuzu azımızdan qorusun.

Əsir etdi ömrü bəhsə-bəhsimiz,
Qeybət qırdıq kəsilincə səsimiz,
Belimizə çox yük vurub nəfsimiz
Qarnımızı ağzımızdan qorusun!

Tərs baxışdan zəhər damır çörəyə,
Soyuq sözdən şeytan girir ürəyə,
Tək zirvəni duman da tez bürüyər,
Sevgimizi nazımızdan qorusun.

Ev tikənəm, qonşum quyu qazandı,
Sağım yazır, sol əlimsə pozandı,
Başqasına cavab vermək asandı
Allah bizi özümüzdən qorusun.

27.X.1992

AYIR BİZİ

Yurdun sərvətini talayan alçaq!
Onsuz da erməni talayır bizi.
Niyə od vurursan ürəyimizə
Dərd öz ocağına qalayır bizi!

Bu nə vurhavurdu, bu nə qazancdı?
Millətin didərgin, millətin acdı,
Pul hansı hikməti üzünə açdı,
Nadanlıq qurd olub dalayır bizi.

Gövdəm baltalanır, qolum dollanır,
Dəllallar dilində adım hallanır,
Xalqın çörəyinə itlər yallanır,
Sonra dil çıxarıb yalayır bizi.

Rüşvət məzənnəni qovzama belə,
Haramı fikrimə qazıma belə,
Qardaşın qanına susama belə
Ya çıx qardaşlıqdan, al, ayır bizi.

Pozdun damarından axan bu qanı,
Bilmədin zamanın haqu yolu hanı?
Hərraca çıxartdın insanlığını
Allah da heyvana calayır bizi!

İyun, 1994

SÖZÜNMÜ QALMIŞ

Mənimlə ortada söz güləşdirmə,
Haqdan danışmağa sözünmü qalmış?
Satdın bu millətin pambığın, neftin,
Bazara sürməyə bezinmi qalmış?

Özgə oyuncağı, özgə səsisən,
Əsillər dinəndə sən kəsəsisən!
Əllərdə sürtülmüş pul kisəsisən,
Rənginmi seçilir, üzünmü qalmış?

Milləti ayırdın qohuma, yada,
Sən də zəmanənin yapdığı xəta...
Ağıl meydanında pul keçmir, atam,
Yoxuş dirənməyə dizinmi qalmış?

Səni qısqırıblar bu dönüş mənə,
Yada gül uzatdın, atdın daş mənə,
Millətin odunu satdın düşmənə,
İndi qızınmağa közünmü qalmış.

Yüz diktə qarışıb cümlə yazına,
Dönmüsən yüz əldə əl kağızına,
Vicdan kəlməsini alma ağzına,
Başdan əyrisənsə düzünmü qalmış?

Siz sevinc küləyi, mən qəm daşıyam
Hər sınıq ürəyin ilk sirdaşıyam,
Mən qaya yazısı, Qan Yaddaşıyam –
Siyasət qumunda izinmi qalmış!..

MƏNƏ QALAN

Kimi yerdən qaldırdımsa
Durub məni yerə vurdu.
Kimdən ötrü kül oldumsa
Külümü göyə sovurdu.
Bu da tale qarğışıdı,
Mənə qalan göz yaşıdı!

Bu bədbəxtlik divanəsi,
Son tikələr qamarlayan,
Bu yetimlər qismətindən

Ciblərini tumarlayan
Adam deyil – çay daşıdı,
Mənə qalan göz yaşıdı!

Ocaq adlı ilk cənnətim,
Şeytanın gözündən gizli...
Damarımda axan qanım –
O ülvilik, müqəddəslik
Ömrün uzaq yaddaşıdı,
Mənə qalan göz yaşıdı!

SINMA

Qəm ürəyi üşüdür,
Qəmi göylər eşidir,
Bu da Allah işidir
Danma, qardaşım, danma!

Uduzuruq haçağdı,
Namərd niyə qoçağdı,
Öz çatdığın ocaqdı,
Yanma, qardaşım, yanma!

Öz yolumuz beləymiş,
Öz ruhumuz köləymiş,
Öz əlimiz tələymiş,
Qonma, qardaşım, qonma!

Daha göz yaşını sil,
Daha haqu yolunu bil,
Daha qarışqanı fil
Sanma, qardaşım, sanma!

Tülkü qəsdinə gəlir,
Qarğa tüstünə gəlir,
Dünya üstünə gəlir.
Sınma, qardaşım, sınma!

8.VII.1994

BAXA BİLMİRİK

Görən bizi kim qarğıyıb,
Tilsimdən çıxa bilmirik.
Şeytan yol tapıb ürəyə
Ürəyi yıxa bilmirik...

Dünya qucan qol verilib,
Nemətimiz bol verilib,
Başdan min cür yol verilib,
Birinə sığa bilmirik.

Gözüm sevmir qaş deyəni,
Xoşlamırıq xoş deyəni,
Əl verib qardaş deyənin
Əlini sıxa bilmirik.

Tarix duymur səsimizi,
Yer unudur izimizi,
Şər qaraldıb üzümüzü
Allaha baxa bilmirik.

1994

AYRILIQ

Ayrılığa nə var ki,
Bir acı söz, ayrılıq.
Əl at, bir yuva dağıt,
Bir çiçək üz, ayrılıq...

Gün keçir yana-yana,
Sonsuz da varır sona
Biri-birinə ana
Gecə-gündüz ayrılıq.

Əl yetirər, göz doyar,
Ayaq gedər, iz doyar
Dağ pay verər, düz doyar
Dağ ilə düz ayrılıq.

Dili bir, imanı bir,
Yaxşısı, yamanı bir,
Damarında qanı bir
Bakı-Təbriz ayrılıq.

Gözümə torpaq düşdü,
Üstümə yarpaq düşdü,
Sısqa bulaq – görüşdü...
Sonsuz dəniz – ayrılıq!

Ayaq yorğun, qol bağlı,
Günüm milyon soraqlı,
Yol – xoşbəxtlik, yol – haqlı,
Mənzilimiz – ayrılıq.

May, 1994

DAŞ

Bir gün uçub töküləcək
Başımıza göyün daşı.
Nəfsi dağdan ağırlara
Deyəcəklər yeyin daşı!

Daş qədəhlər içilirsə,
Çörək daşla ölçülürsə,
Məzar daşdan biçilirsə
Diriykən də geyin daşı.

Yaşadıqca daş hasarlar
Ümidim daşa sarılar,

Ay köksündən daş asanlar,
Yumşaqdısa döyün daşı.

Sapand daşı mənə yetər,
Bu nöqtəylə nağıl bitər,
Qardaş var ki daşdan betər,
Öyün, qardaş, öyün daşı!

Üstələsə qara ağı,
Qaralsa haqqın ocağı,
Qorxutmaz gədənin dağı
Çox ağırdı bəyin daşı.

Xəzinə ver, quruş almaz,
Bu daş baltası korlaşmaz,
Əcəl yığar yer boşalmaz,
Nə çox imiş çayın daşı?!

22.XII.1994

YUMRUQLAR ÇİÇƏK AÇIB

Gözəl dünya, təbili çal,
İtib getdi qara xəyal,
Qolumdakı qanlı qandal
Daha paslanıb, paslanıb.

Yatar çaylar kükrəyəndə,
Köhnələrim yol yeyəndə,
Yurdum qırmızı geyəndə,
Düşmən yaslanıb, yaslanıb.

Yelkənimi külək açıb,
Tarix mənə ürək açıb,
Bax yumruqlar çiçək açıb
Meydan yazlanıb, yazlanıb!..

1988

VUR GÜLLƏNİ

İnanmıram mərd oğul
Dava günü darıxsın.
Meydanda qan coşanda
Dayanıb yandan baxsın.

Azadlığa yol açıq,
Bu yolda ağrı-acı,
Şəhidlik ömrün tacı...
Bu qisməti buraxsın!

Daha bezdim bu qəmdən,
Bu itkidən, ələmdən,
Vur gülləni sinəmdən,
Ürəkdən ağrı çıxsın!

1990

ÖLÜMƏ DOĞRU

Mən ölümə getməsəm,
Ölüm mənə gələcək!
Tanıyacaq qapımı,
Ünvanımı biləcək.

Kimlər olub həyanım,
Necəymiş güzəranım,
Nəyim var, nəyə yanım...
Asta-asta güləcək...

Oyanacaq mən yatsam,
Qaçacaq əl uzatsam,
İlk addımı mən atsam
Ölüm özü öləcək!

1988

VAXTI DEYİL

Qılınc səsləndirsə dinən olmasın,
Döyüş köhlənindən enən olmasın,
Geri çağırsalar dönən olmasın,
Meydan ki qızışdı "dur!" vaxtı deyil!

Qaranquş yuvamda çöp də yanırsa,
Yüz il uyduğumuz gop dağılırsa,
Yurdum yad ayaqda tapdalanırsa,
Məndən kimliyimi sor vaxtı deyil!

Ekranda əyləncə, musiqi, şer,
Qonşu qonşusuna iftira deyir,
Kişisən düşmənin cavabını ver,
Yoxsa özünkünə zor vaxtı deyil!

Hayana baxırsan ələm, göz yaşı,
Qırğınlar, matəmlər... dərd başdan aşır,
Ölənlə bərabər ölmə, qardaşım
Tarix sınağıdır, gor vaxtı deyil!

1992

TAPŞIR MƏNİ

Ruhumda bir sızıltı var,
Yağı soyar, zaman talar,
Bəlkə əlin məlhəm olar
Əllərinə tapşır məni.

Mən nəslimin savaşıyam,
Qılıncıyam, göz yaşıyam
Köçdən qalan Qu quşuyam...
Göllərinə tapşır məni!

Dünya huşsuz, məzar dərin,
Sevən gözlər kölgələnir.
"Ata!" deyən körpələrin,
Dillərinə tapşır məni!

DAĞDAN DANIŞA BİLMİRƏM

Harda qaldı buz bulaqlar,
Çağlayıb daşa bilmirəm,
Yurd yerləri mənsiz ağlar,
Səsimi qoşa bilmirəm.

Ayağımda dəmir kündə,
Silahım korlaşıb qında,
Zirvələrim qan içində,
Zirvəni aşa bilmirəm.

Bostanları uralanıb,
Köçü-karvanı talanıb,
Bu el dağdan aralanıb,
Dağdan danışa bilmirəm...

1989

ÜZÜMƏ DURUR

Vaxt ötür, qol yorulur,
Silah üzümə durur.
Kimdən pənah umurdum –
Pənah üzümə durur,

İllər ruhumu soyur,
Son köynəyim toxuyur,
Dərd "Bəri bax!" oxuyur
Hər ah üzümə durur...

Bu oyunda tale – zər...
Hökmünü sonra kəsər,
Qorxmaz keçir gülümsər,
Qorxaq üzümə durur.

Əbəs imiş yandığım,
Nə olub qazandığım?
Unudulmuş sandığım
Günah üzümə durur.

Kilidləmir qapını,
Bağlamır kitabını,
Üzmür haqq-hesabını
Allah üzümə durur.

1990

MİKAYIL AZAFLIYA

Qapını açmışıq, Mikayıl əmi,
Ustad ayağına gələnlərdənik.
Deyirlər qurumur gözünün nəmi,
Biz qardaş gözünü silənlərdənik.

Sazın min dərdimin bircə əlacı,
Sözün arzumuza qapılar açır,
Başına taleyin qoyduğu tacı
Millətin şöhrəti bilənlərdənik!

Üstündən fələyin tufanı əsər,
Mərdliyin İranı, Turanı gəzər,
Kişinin çörəyi özünə bənzər,
Tikəni halalca bölənlərdənik.

Ədalət çağırdın soraq gəlmədi,
Bu zindan dünyada üzün gülmədi,
Qəminə sevinən qafil bilmədi
Bizlər də axırda gülənlərdənik!

Gümüş saçlarını sərib səhərə,
Yüz ilin dizini vurarsan yerə,
Haqqa tapınanlar daş qoyan yerə
Biz də baş qoyaraq ölənlərdənik.

Tovuz, 1988

YARDIMLIYA DÖNƏRKƏN

Payız gəldi, yenə gəldim dağlara,
Bostanların uralanan çağıydı.
Bu dünyanın nə ki rəngi, naxşı var
Bir yamacda sıralanan çağıydı.

Qızıl meşə ağ dumanı darayır,
Köçdən qalan yol yoldaşı arayır,
Durna səsi, uşaqların harayı...
Ürəyimin yaralanan çağıydı.

Meşə yolu xəzan altda itəcək,
Dostlar gedib, səsim kimə yetəcək,
Nə yazmışam, nə yazmıram bitəcək,
Yazdığımın qaralanan çağıydı.

21.X.1990

DAĞLARA QOVUŞURAM

Sanki yol da doğmalaşır
Boz gədiyi aşan kimi.
Qayalardan soraq gəlir
Bir kəlmə danışan kimi.

Əlçim bulud yol ötürən,
Tənha cığır sirr götürən,

Addımbaşı bir xatirə –
Gəncliyimdən nişan kimi.

Yenə zirvə göyü yarır,
Yenə sellər yer qoparır,
Sinəmdən duyğu qabarır
Yaz tufanı coşan kimi.

Tanış sözlər, tanış üzlər,
Ya qımayar, ya əzizlər,
Bulaq üstə dolu gözlər –
Çiçəkdən şeh daşan kimi.

Yoxuşlarla savaşıram,
Uçurumlar sovuşuram,
Mən dağlara qovuşuras
Tanrıya qovuşan kimi.

25.X.1990

SON

Bəlkə son bahardı, bəlkə son qışdı,
Diz çöküb torpağa enməyim də son.
Bu kənd cığırıyla payi-piyada
Ata ocağına dönməyim də son.

Yazıb yol lentinə addım səsini,
Çəkib hər bulağa təzə rəsmini,
Qırıb yoxuşların iradəsini,
Zirvə inadını yenməyim də son!

Yenə cavan ümid – ömrün yazından,
Yenə ölümsüzlük – elin ağzından,
Məst olub dəyişməz yurd havasından
Qədim bir avazla dinməyim də son.

Gədikdə o tənha palıd ağacı,
Çəmən süfrələri yenə də açıq,
Xatirə köhləni üstüsə qaçır,
Onu cilovlayıb minməyim də son!

Ruhları oyanıq kənd axşamında,
Dünyanın sirləri an yaşamında,
Sonuncu çiçəyin titrək şamında
Yanıb pərvanətək sönməyim də son!

25.X.1990

VİDA QABAĞI

Gəl bir daha səni öpüm,
Dodaqların qırışmamış.
Saçlarımız ağ bayraqlı
Qocalıqla barışmamış.

Nəğməmizin zili, bəmi,
Altun yüklü ürək gəmim,
Dünya boyda bir aləmim
Torpaqlara qarışmamış.

Sonsuzluq – illər əvəzi,
Daş qəfəs – yollar əvəzi
Boynuma qollar əvəzi
Buz ilanlar sarışmamış!

28.XI.1991

GETMƏ

Al məni qollarına,
Sal məni yollarına,
Qat məni illərinə
Getmə, ömrümdən, getmə!

Getdi dostlar, tanışlar
Üstümü aldı qışlar,
Ölüm təkləri xoşlar
Getmə, ömrümdən, getmə!

Mehi sən, küləyi sən,
Qəmi sən, gülməyi sən,
Bu ömrün hər şeyi sən,
Getmə, ömrümdən, getmə!

Dağlarım əriyəcək,
Çaylarım kiriyəcək,
Ürəyim çürüyəcək,
Getmə, ömrümdən, getmə!

Ağacamsa çiçəksən,
Süfrəyəmsə çörəksən,
Sən yaşamaq deməksən,
Getmə, ömrümdən, getmə!

22.I.1993

* * *

Sındır qanadımı, qırıq simlərdə
Bir də eşq havası çalmaq olarsa.
Qopar yarpağımı ver küləklərə
Bir də quru çöpü yolmaq olarsa.

Ərit bu şaxtanı o yaza çıxar,
Yu bütün qaranı bəyaza çıxar.
Vur məni dərindən dayaza çıxar,
Bir də bu sevdaya dalmaq olarsa!

Sındır vüqarını uca dağların,
Susdur nəğməsini gur bulaqların,
Ver məni əlinə ayrılıqların
Bir daha geriyə almaq olarsa!..

1993

MƏNİ NİYƏ BURAXDIN

Hardan gəlib yetişdi?
Söydüm bu namərd vaxtı.
Dartdım onu azadam –
Əziyyətim nahaqdı!

Od tutdu sabahacan
Arada bir kəlmə: "can".
Sabahı diri açan
Gözlərimiz çıraqdı!

Uluyuq, pir deyilik,
Allaha sirr deyilik,
Bir ikən bir deyilik,
Kor olsun belə baxtı!

Yaradıb düzə boşlar,
Başına tökər daşlar.
Yaxşını pisə tuşlar,
Dünya belə alçaqdı!..

Niyə əlimi sıxdın,
Niyə yoluma çıxdın,
Bilirdin ayrılıqdı
Məni niyə buraxdın?!

1993

GÖZÜNÜ YUMDUNMU

Gözünü yumdunmu keçdi bu gecə,
Mən də bu gecənin bir uyğusuydum.
Bir az dağ xislətli, bir az çay təbli,
Başı buludlarda, ayağı suydum.

Yarpaqla saralan, toxumla bitən,
Beşiklə tapılan, məzarla itən,

Kimsə soruşmadı, kimsən, ay gedən!
Payızın köçəri bir duyğusuydum.

Allahdı, şeytandı? – ayır bu sosi,
İşığın yanında kölgə də gəzir,
Bir oğru sövdənin Keçəl Həmzəsi
Bir doğru sevdanın Koroğlusuydum.

Gülmək istəmirdim gülüm çağırdı,
Gülüş arxasınca zülm çağırdı,
Ölmək istəmirdim, ölüm çağırdı
Elə bil borcluydum, gor oğrusuydum.

Onsuz da bağlanmaz qəm dəftərimiz,
Onsuz da soyumaz alın tərimiz,
Axirət sınağı – görüş yerimiz –
Binədən Allahın maraqlısıydım!

24.VIII.1994

BAXMA MƏNƏ

Səni candan sevirəmsə,
Kölən kimi baxma mənə!
Ürəyimdə nə çəkirəm?
Bilən kimi baxma mənə!

Nə keçirsə gündən keçir,
Ümidimiz gendən keçir,
Bu dərdlər ki məndən keçir
Gülən kimi baxma mənə!

Sızlasam da rişə-rişə,
Ürəyinə dəyməmişəm,
Ölüb dirilməkdi peşəm,
Ölən kimi baxma mənə!

24.V.1994

BU GECƏ

Bu od qismətini daşımaq çətin,
Bu ruh həsrətini yaşamaq çətin,
Bu sel qabağında daş olmaq çətin
Canı bədən ilə bağlar bu gecə!

Sən dilsiz duyğunun ballanan dili,
Sən sonsuz həsrətin yaxın sahili,
Dünya bilməyəni gözlərin bilir,
Gözün bildiyini ağlar bu gecə...

Bir anın ovcunda insan bəxtiyar,
Bir ahın odunda ömürlər yanar,
Dünyanın nə qədər dağ çayları var.
Bizim içimizdə çağlar bu gecə.

Bu qılınc, bu da ki əbədi qını,
Bu döyüş – bəşərin qansız qırğını,
Bu yara öldürməz saxla sarğını,
Yaranı çiçək tək qoxlar bu gecə.

Min ömür gələcək yaşımız üstə,
Min bahar açacaq qışımız üstə,
Bir Ay – çırağını başımız üstə
Tutub keşik çəkər dağlar bu gecə.

Köhnəlməz paltardı, ərlər geyərsə,
Qırılmaz səfərdi – mərdlər yüyürsə,
Ölsəm, qəbrim üstə otlar göyərsə
Şəklimi gözündə saxlar bu gecə!..

* * *

Xəbər gəlməz səhərimdən,
Yük tutmuşam kədərimdən,
Bu qanadsız qədərimdən
Qanad alıb uça bilərəm.

Dörd yanımda yüz qan-qada,
Dünyam özü dönüb yada,
Yerdən bir gül əl uzada
Onu məndən uca biləm.

Hansı zülmət yapısıdı,
Hansı yolun tapısıdı,
Hansı sirrin qapısıdı,
Son günümə açа biləm.

Yolsuz zirvə, yolsuz dərə,
Ümid olub yol bizlərə,
Allah mənə yol göstərə,
Bu dərdlərdən qaça biləm...

1994

Çörək bahalaşanda söz ucuzlaşır. Savaş meydanında uduzan bir xalqın şairləri söz meydanında urvatsız görünür. Torpaqla birlikdə ruhumuz da itir. Vətən bütövləşmədikcə sözümüz də bütövləşməyəcək. Bəlkə buna görədi bütün nəğmələrimi yarımçıq sayıram. Ömrümün ən gözəl illərini Azərbaycanın müstəqilliyi, bütövlüyü uğrunda mübarizəyə verdim. Zaman məni irəli aprdıqca duyğularım geriyə çəkir. Atalarımızı, Mirzə Fətəlini, Sabiri, Mirzə Cəlili indi daha yaxşı başa düşürəm. Bununla belə içim işıq və ümidlə doludur. Elə bilirəm əsl şeirlərim bundan sonra, bu işıqdan doğulacaq...

ŞAİRLİK DƏBDƏN DÜŞÜB

Şairlik dəbdən düşüb...
Bir yerə sığışmaz,
qaragüruh,
ruh...
Bir yerə sığışmaz
ürəklə kötək,
daş ilə silahdaş
duyğuyla uyğu!..
Bu torpaq adalar insanla dolu,
Bir ana döşündə beş milyard zəli.
Torpaqdan sorulan torpağa dönür
Şairlər torpağa dönmür deməli!..

Duyğudur, arzudur, ruhdur qidası,
Doğuşu, ölümü dilindən gəlir.
İnsanlar torpağın yetirməsisə
Şairlər Allahın belindən gəlir.

Allah balasını Şeytan istəməz,
Yalnız duyanadır şairin ərki
Zülmdən, zülmətdən qorxmayan ilham
Şeytan ocağından düşər didərgin.

Dilimdə dolaşsa həqiqət ölür,
Ölüm də şairin bir sualıdır